*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 3, s.90-94*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 3, p.90-94*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 3, с.90-94*

**UOT: 82-912:39**
https://doi.org/10.30546/670832.2025.02.1160

# Azərbaycan nağıllarında Şah Abbasa münasibət məsələsinə dair

**Müəllif(lər):**

**Yusif Səfərov**
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə elmlər doktoru, professor
**E-poçt:** yusifsafarov@nmi.edu.az

**Açar sözlər:** Şah Abbas, nağıl, xalq münasibəti, adil şah, gerçəklik

**Annotasiya.** Məqalədə Azərbaycan nağıllarında Şah Abbasa olan xalq münasibətinin müsbət və mənfi cəhətləri öyrənilir. Sovet dövründə şahlara, xanlara mənfi münasibət aşılanmışdı. Nəticədə araşdırmalar sovet ideologiyasının təsirindən çox da kənara çıxa bilməmişdi. Bu da Şah Abbasla bağlı araşdırmaların düzgün aparılmasına o qədər imkan verməmişdi. Xalq həmişə adil və ədalətli hökmdarların hakimiyyətində olmasını arzulamışdır. Nağıllarda Şah oğlu Şah Abbas əsasən xalqla yaxın, ağıllı və ədalətli şah kimi təsvir olunur. "Şah Abbasla kəndli qızı", "Qızıl təsbeh", "Şahın tədbiri", "Ağıllı gəlin", "Qoca və uşaq", "Həsən Qara" kimi nağıllar şahın xeyirxah, tədbirli və rəiyyət qeydinə qalan obrazını göstərir. Məqalədə Şah Abbasa xalq münasibətinin səbəbləri tarixi mənbələrə və keçmiş araşdırmalara əsasən öyrənilməyə çalışılmışdı. Bəzi qeyri-elmi yanaşmalara aydınlıq gətirilmiş, məsələnin elmi həllinə çalışılmışdı. Aydın olur ki, nağıllarda Şah Abbasa daha çox müsbət, bəzən də mənfi münasibət bəslənməsi sabiq şahın fəaliyyətinin bir çox məqamları ilə səsləşir. Tarixdə Şah Abbasın sərt, qəddar tədbirlərilə yanaşı, xeyirxah, ədalətli, qurucu fəaliyyəti daha çox olmuşdu. Bunlara görə Şah Abbas xalq arasında "adil şah" kimi tanınmışdır. Araşdırmalar göstərir ki, nağıllardakı Şah Abbas obrazının tarixi prototipi I Şah Abbasdır. Məqalənin aktuallığı, yeniliyi də bunların öyrənilməsidir.

## On the issue of attitude to Shah Abbas in Azerbaijani fairy tales

**Author(s):**

**Yusif Safarov**
Nakhchivan Teachers Institute
Doctor of sciences on Philology, Professor
**E-mail:** yusifsafarov@nmi.edu.az

**Key words:** Shah Abbas, fairy tale, people's attitude, a just king, historical reality

**Abstract.** This article deals with the positive and negative aspects of the people's attitude to Shah Abbas in Azerbaijani fairy tales. During the Soviet period a negative attitude to shahs and khans was instilled. As a result research could not far beyond the influence of Soviet ideology. This did not allow for proper research on Shah Abbas.The people always wished for just and fair rulers. In fairy tales" Shah Abbas and the Peasant Girl ",''Golden Rosary"," The Shah's Plan","The Wise Bride", "The old Man and the Child","Hasan Gara" show the image of the Shah as a benevolent and well-mannered ruler.In the article the reasons for the people's attitude to Shah Abbas are attempted to be studied based on historical sources and previous research. Some unscientific approaches are clarified and scientific solution to the issue is attempted. It is clear that, in the tales the more positive sometimes even negative attitude to Shah Abbas resonates with many aspects of former Shah's activities.In history along with the harsh and cruel measures of Shah Abbas there were more benevolent,just and constructive activities. Due to these Shah Abbas was known among the people as "a just Shah". Researches show that the historical prototype of the image of Shah Abbas in the tales is Shah Abbas I.Studying them is the relevance and novelty of the article.

## К вопросу отношения к Шаху Аббасу в азербайджанских сказках

**Автор(ы):**
**Юсиф Сафаров**
Нахчыванский институт учителей
Доктор филологических наук, профессор
**Э-почта:** yusifsafarov@nmi.edu.az

**Ключевые слова:** Шах Аббас, сказка, народное отношение, справедливый шах, реальность

**Аннотация.** В статье исследуются положительные и отрицательные аспекты народного отношения к Шаху Аббасу в азербайджанских сказках. В советский период формировалось негативное отношение к шахам и ханам, в результате чего исследования не всегда выходили за рамки советской идеологии, что затрудняло объективное изучение образа Шаха Аббаса. Народ всегда стремился жить под властью справедливых и честных правителей. В сказках Шах-оглы Шах Аббас в основном изображается как близкий к народу, мудрый и справедливый правитель. Такие сказки, как «Шах Аббас и крестьянская девушка», «Золотые чётки», «Мудрость шаха», «Умная невестка», «Старик и ребёнок», «Гасан Кара», отражают образ доброжелательного, рассудительного шаха, заботящегося о подданных. В статье на основе исторических источников и предыдущих исследований анализируются причины народного отношения к Шаху Аббасу, даётся разъяснение ряду ненаучных подходов и предпринимается попытка научного решения проблемы. Установлено, что преимущественно положительное, а иногда и отрицательное отношение к Шаху Аббасу в сказках связано с различными аспектами его деятельности. В истории наряду с жёсткими и суровыми мерами Шах Аббас проявлял доброжелательность, справедливость и созидательную деятельность, что и обеспечило ему в народе славу «справедливого шаха». Исследования показывают, что историческим прототипом образа Шаха Аббаса в сказках является Шах Аббас I.

**Giriş**. Azərbaycan folklorunda şahlara müsbət və mənfi münasibəti ifadə edən çoxsaylı nağıllar vardır. Bunların bəzisində şahlar zalım, qəddar, ağılsız, bəzilərində isə bacarıqlı, ədalətli təsvir olunur. Buna görə də nağıllara uzaq keçmişin irsi kimi yanaşıb, onları ictimai həyatdan ayırmaq olmaz. Xalq həmişə istəmişdir ki, ölkəni adil, ədalətli hökmdarlar idarə etsinlər.

Azərbaycan nağıllarında xalqa yaxın hökmdarlardan biri, bəlkə də birincisi Şah oğlu Şah Abbasdır. Sovet dövründə şahlar, xanlar, bəylər fəhlə-kəndli təbəqəsinin sinfi düşmənləri sayılırdı. Belə yanlış ideologiya nağıllardakı şah surətlərinin olduğu kimi araşdırılmasına mənfi təsir göstərirdi. Məqsəd müstəqillik dövrümüzdə milli folkloru, o sıradan nağıllarda Şah oğlu Şah Abbasa olan xalq münasibətini düzgün araşdırılmasıdır. Bu, tədqiqatın elmi yeniliyidir.

"Şah Abbasla kəndli qızı" nağılında kəndli yolda rast gəldiyi iki dərvişin ona verdiyi sualları anlamayıb onları qanmaz adlandırır. Kəndli evə gələndə qızı onu başa salır ki, o, dərvişləri başa düşməyib. Sonra qız atasının vasitəsilə dərvişləri evə qonaq dəvət edir.

Deyir hər gözəlin bir eybi olar. Bu qızın da eybi gözünün birində balaca bir gül ləkəsinin olması idi. Söhbət zamanı dərvişlərdən biri evin divarındakı ocağın buxarısını o birinə göstərib deyir:

– Buxarı yaxşı hörülüb, amma yuxarısında bir az əyrisi var.

Ocağın üstündə yemək hazırlayan qız dərvişin nə dediyini anlayıb cavab verir ki, "ağa dərviş, siz tüstünün düz çıxmağına fikir verin".

Qızın ağıllı olduğunu hiss edən dərviş paltarı geymiş Şah Abbas kəbin kəsdirib onunla evlənir. Bir müddətdən sonra Şah Abbas adı üstündə yazılmış bazubəndini qıza nişanə verib İsfahana qayıdır.

Şah Abbasın qızdan olan oğlu 18 yaşa çatanda İsfahana gedib bir dükan açır. Vəzir Allahverdi xanın qızı oğlanı görüb sevir və gizli yolla onunla görüşür. Şah Abbas bundan xəbər tutub hirslənir və şahlığı üç günlüyə Allahverdi xana verir. Vəzir qızı və oğlanı ölüm cəzasına məhkum edir. Amma oğlanın qolundakı bazubənd onun Şah Abbasın oğlu olduğunu aydınlaşdırır. Hökm ləğv olunur. Şah Abbas toy edib vəzirin qızını oğluna alır [3, s.197-202].

"Qızıl təsbeh" nağılında da Şah Abbas ağıllı, tədbirli, rəiyyət qeydinə qalan şah kimi təsvir olunur. Təğyiri-libas olub ölkəni gəzən şah gün çörəyinə möhtac olan bir ailəyə qonaq olur. Şah ailəyə yardım edir, əlindəki qızıl təsbehi də onlara bağışlayır.

Bu hadisədən bir neçə il sonra şah yenə həmin ailənin vəziyyətilə maraqlanır. Aydın olur ki, qızıl təsbehi bir qoluzorlu arvadın əlindən alıb. Şah həmin adamı cəzalandırır, qızıl təsbehi də alıb arvadın özünə verir [3, s.98-103].

"Şahın tədbiri" nağılında da Şah Abbas rəiyyət qeydinə qalır, hətta bu yolda dini səciyyə daşıyan "yazıya pozu yoxdu" hökmünə qarşı çıxır. Nağıla görə, yoxsul ailədə doğulmuş bir uşağın 15 yaşı olanda Əzrayıl gəlib canını almalıdır. Şah bunun qarşısını almaq üçün uşağı saraya gətirdib mühafizə edir. Lakin uşaq 15 yaşa catanda anasının saçları ilan olub onu çalıb öldürür. Şah Abbas kədərlənir, şahların da olacaq "qəza-qədər"in qarşısında aciz olduğuna təəssüflənir [ 9, s.156].

"Ağıllı gəlin", "Qoca və uşaq", "Həsən Qara" naqıllarında da Şah Abbas ağıllı, tədbirli hökmdar kimi təsvir olunur. Bundan başqa da nağıllar var ki, Şah Abbas bunlarda da müsbət planda təsvir edilir.

Göründüyü kimi, buradək nəzərdən keçirilən nağılların hamısında I Şah Abbas ağıllı, ədalətli şah kimi verilir. Ona müsbət münasibət ifadə edən belə nağılların sayı çoxdur. Bunların da bəziləri digər tədqiqatçılar tərəfindən araşdırılıb.

Folklorşünas N.Seyidov Şah Abbasın nağıllarda ədalətli verilməsini bir neçə səbəblə bağlayır. Bunlardan biri şahın vaxtilə Azərbaycanda apardığı müsbət siyasətin bu məsələdə müəyyən rol oynamasıdır [8, s.82-85]. Digər tərəfdən Şah Abbasın apardığı böyük quruculuq işləri Azərbaycan ərazisini də əhatə edirdi. Vaxtilə burada karvansaralar, körpülər, qaraulxanalar, məscid və mədrəsələr tikilib, yollar, kanallar, su kəmərləri çəkilibdi [8, s.86-87].

Bu fikirlər də göstərir ki, Şah Abbas ölkənin abadlaşmasına, inkişafına böyük diqqət yetirmişdi. Bunlardan başqa ordunun yenidən qurulması, vergilərin aşağı salınması ölkənin təhlükəsizliyi, xalqın həyat şəraitinin yaxşılaşdırılması üçün görülmüş müsbət, xeyirxah işlər də bu sıradadır.

Zənnimcə, bu deyilənlərin hamısını siyasət xatirinə edilmiş işlər kimi təqdim etmək düzgün olmaz. Axtarsaq burada xalqın mənafeyilə bağlı məqamlar da az deyil. Şah Abbasın hakimiyyətinin ilk dövründə Osmanlı qoşununun qarşısından geri çəkilib taxıl zəmilərini yandırması, əhalini ölkənin mərkəzinə doğru köçürməsi hərbi taktika idi. Çünki onda Səfəvi ordusu zəif idi. Bu, Osmanlı qoşununun ərzaq tapa bilməyib geri çəkilməsi məqsədi güdürdü.

H.Araslı yazır ki, "Şah Abbasın ölümündən sonra II Şah Abbasın hakimiyyəti illərində şəhərlərdə ticarət yüksəldi. Osmanlı və Şah Abbas ordularının vurduqları ziyanlara baxmayaraq, Azərbaycan şəhərləri tez zamanda özlərini düzəldə bildilər" [2, s.75]. Şəhərlərdə II Şah Abbasın adı ilə bağlı nağıllar yayılırdı. II Şah Abbasın hakimiyyəti illərində müharibələrin olmaması, ticarətin inkişafı, ölkənin iqtisadi cəhətdən nisbətən irəliləməsi onun nüfuzunu artırmışdı. Ona görə də hələ XVIII əsrin əvvəllərindən Şah Abbasın adı dillərdə əzbər idi..." [2, s.213].

H.Araslının fikrində həqiqət var. I Şah Abbasın ölümündən sonra II Şah Abbasın ölkə xaricində və daxilində ədalətli, sülhsevər siyasət yeritməsi onun da xalq arasında nüfuzunu xeyli artırmışdır. Belə ki, XVIII əsrdə II Şah Abbasla bağlı el arasında nağıllar da yaranırdı. Həmçinin II Şah Abbasın I Şah Abbasın xeyirxah ənənələrini davam etdirməsi onlarla bağlı yeni nağılların yaranmasına müsbət təsir göstərirdi.

XVI əsrin sonu, XVII əsrin əvvəllərində Səfəvi və Osmanlı müharibələri barədə N.Seyidov yazır ki, "türklər Azərbaycanı aldıqdan sonra məlum oldu ki, Sultanın verdiyi vədlərin hamısı aldatma imiş. Azərbaycanın türklər tərəfindən tutulmuş hissəsində bir sıra paşalıqlar yaradıldı. Beləliklə, xalqı həm osmanlılar, həm də yerli feodallar soymağa başladı. Belə bir zamanda Şah Abbas siyasət meydanına çıxır. O, gizli hərbi hazırlığa, strateji məqsəd daşıyan tədbirlərə, bir tərəfdən də geniş təbliğata başlayır. Şah xalqı öz tərəfinə çəkmək, öz məqsədləri uğrunda səfərbərliyə almaq üçün bir sıra müvəqqəti güzəştlər verir" [8, s.86,87]. N.Seyidov belə güzəştlərin verilməsini Şah Abbasın şifahi ədəbiyyatda xeyirxah planda verilməsinin əsas səbəblərindən biri kimi izah edir. Əlbəttə, məsələnin şərhinə müəyyən dərəcədə sovet ideologiyasına uyğun yanaşmış tədqiqatçının elmi yanaşmasının bəzi məqamları ilə razılaşmamaq olar.

Deyildi ki, bəzi nağıllarda Şah Abbas mənfi obraz kimi də verilir. Məsələn, "Salehlə Valeh" nağılında onun ədalətsizliyi, divanxanalarda rüşvətxorluğu təsvir olunur. "Dərzi şagirdi Əhməd" nağılında da Şah Abbas müsbət verilmir. Digər nağıllarda da belə vəziyyəti görmək olur. Bunlar da müəyyən dərəcədə həqiqətlə səsləşir. Belə ki, tarixdə I Şah Abbasın ədalətli, xeyirxah işlərilə yanaşı, bəzən sərt tədbirləri və qəddar cəza üsulları da olmuşdur.

**Material və metodlar.** Tədqiqatın materialını Azərbaycan folklorunun nağıl nümunələri təşkil edir. Xüsusilə Şah oğlu Şah Abbasa aid nağıllar diqqət mərkəzində olmuşdur. Tədqiqatda əsas mənbələr kimi "Şah Abbasla kəndli qızı", "Qızıl təsbeh", "Şahın tədbiri", "Ağıllı gəlin", "Qoca və uşaq", "Həsən Qara" nağılları və digər nağıl nümunələri istifadə edilmişdir. Bu nağıllar həm Şah Abbasın müsbət, həm də mənfi keyfiyyətlərini əks etdirən xalq təsəvvürünü əks etdirir. Əlavə olaraq, tarixi mənbələr və elmi araşdırmalar (A.Bakıxanov, İsgəndər bəy Münşi, H.Araslı, N.Seyidov, V.Vəliyev və digər alimlərin əsərləri) nağıllarda təsvir olunan şah obrazlarının tarixi kontekstdə düzgün qiymətləndirilməsi üçün material kimi daxil edilmişdir.

Tədqiqatda istifadə olunan metodlar nağıl nümunələrinin tarixi və folklor kontekstində araşdırılmasına xidmət etmişdir. Əvvəlcə mətn analizi və müqayisəli təhlil aparılmışdır. Bu metod vasitəsilə nağıllardakı şah obrazlarının xüsusiyyətləri sistemli şəkildə müəyyən edilmiş, müxtəlif nağıl nümunələrindəki oxşarlıqlar və fərqliliklər təhlil olunmuşdur.

Sonra tarixi kontekstin tətbiqi metodu istifadə edilmişdir. Nağıllarda təsvir olunan hadisələr və şahların davranışları Səfəvi dövrünün tarixi mənbələri ilə müqayisəli şəkildə araşdırılmış, tarixi faktlar və folklor nümunələri bir-biri ilə əlaqələndirilmişdir. Bu yanaşma nağıllardakı obrazların realizmi və idealizasiyasını qiymətləndirməyə imkan vermişdir.

Folklor-mədəni yanaşma da tədqiqatın əsas metodlarından olmuşdur. Bu metodla xalqın şahlara münasibəti, ədalətli və xeyirxah ideyaların formalaşması, dini və ictimai təsirlər araşdırılmış, Şah Abbasın xalq arasında müsbət obrazının

səbəbləri müəyyən edilmişdir.

**Nəticə və müzakirə**. Azərbaycan sovet folklorşünaslığında Şah Abbasla bağlı birbaşa olmasa da, bəzi araşdırmalar aparılıb, real fikirlər söylənib. O dövr üçün bu çətin olsa da, professor M.Təhmasibin tədqiqatlarında buna rast gəlinir. Görkəmli alim Şah Abbasla bağlı yazır ki, "bu adamın Azərbaycan-İran tarixində oynamış olduğu rol məlumdu. Səfəvi dövlətinin ikinci mərhələsinin ilk hökmdarı olan Şah Abbasın Azərbaycana münasibəti və bu münasibətin aqibəti də bəllidir. Şifahi ədəbiyyatımızda çox geniş yer tutan bu adam gah tamamilə mənfi, gah tamamilə müsbət bir şah kimi təsvir edilir" [10, s.247]. Bəzi nağıllarda isə "Şah Abbas cənnətməkan, tərəziyə vurdu təkan, iki qoz, bir girdəkan"-deyə lağa-məsxərəyə qoyulursa da, "lakin açıq ehtiraf etmək lazımdır ki, onun adilliyi, xeyirxahlığı daha üstün, daha qüvvətlidir" [10, s. 247]. Folklorşünas V.Vəliyev də nağıllardakı Şah Abbas surətinə daha çox xalqın arzu və istəklərinin təcəssümü kimi baxır"dı [11, s.264].

Ümumiyyətlə, tədqiqatlada Şah Abbasla bağlı deyilmiş fikirləri təxminən belə qruplaşdırmaq olar: xalqın nağıllarda Şah Abbasa münasibəti daha çox müsbətdir; bu onun xeyirxah fəaliyyətilə yanaşı, "ədalətli şah" ideyasından da irəli gəlir.

Bunlardan başqa, aşağıdakı məsələlər də köməkçi vasitə olmuşdu.

1. Səfəvi-Osmanlı müharibələrində Şah Abbasın siyasi məqsədlər üçün "quruculuq" işləri aparması, əhalinin kasıb təbəqəsinə diqqəti artırıb xalqı tərəfinə çəkə bilməsi.

2. Şah Abbasın hakimiyyəti illərində xalq kütlələri arasında şiəliyin təbliğ etdirilməsi.

Şah Abbasın nağıllarda daha çox müsbət verilməsinin yuxarıdakılardan başqa sədədləri də vardır ki, bunların çoxuna sovet dövründə ciddi yanaşılmırdı. Bunu professor İ.Abbaslının da fikirləri göstərir. O, yazır ki, sovet dövründə humanitar elmlərin əksər sahələri kimi folklorşünaslıq da əsasən ideologiyaya xidmət edirdi [1, s.485].

Naxçıvan bölgəsində vaxtilə yazıya alınmış nağıllarda da Şah Abbasa münasibət daha çox müsbətdir. Tarixdən məlumdur ki, şiəliyin təbliğ olunduğu əsas yerlərdən biri Naxçıvan, xüsusən də Ordubad bölgəsi olub. Şah Abbas 1606-1607-ci illərdə Azərbaycanı Osmanlıdan geri alandan sonra Ordubad şəhərinin şiəlik tərəfdarı olduğunu və Səfəviləri müdafiə etdiyini nəzərə alaraq, onu "xəzinəyə verilən bütün vergilərdən azad etmişdir" [4, s.290-291]. Tarixçi alim A.Bakıxanov bu barədə yazır: "Şah Abbas məmləkəti abad etmək və rəiyyətin asayişinə baxmaq işlərində bütün dünyada məşhurdur...Sultanların ləyaqətini onların xüsusi məziyyətlərinə görə təyin edən Avropa tarixçiləri belə, bu elmi sevən padşaha "Böyük" ləqəbi vermişdilər. O, xalq arasında adil sifətilə tanınmaqdadır" [5, s.142].

İsgəndər bəy Münşinin "Dünyanı bəzəyən Şah Abbasın tarixi (Tarixi-aləmaraye-Abbasi) əsərini fars dilindən Azərbaycan dilinə tərcümə etmiş professor Şahin Fazil kitabın əvvəlində yazdığı giriş xarakterli məlumatında deyir: "Osmanlının hakimiyyəti illərində Ordubadda qətliamlar oldu, şəhər dağıdıldı. Bu ağır ziyanlara görə Ordubad I Şah Abbas tərəfindən bütün divan vergilərindən azad edildi [6, s.28]. "İsgəndər bəy I Şah Abbasla birlikdə Azərbaycanın demək olar ki, bütün böyük şəhərlərində, o sıradan Təbriz, Ərdəbil, Naxçıvan, Əhər, Xoy, Maku, Gəncə, Ordubad, Şamaxı və Bakıda olmuşdur" [6, s.15]. İsgəndər bəy adı çəkilən əsərində I Şah Abbasın müsbət və mənfi keyfiyyətlərilə bağlı xeyli doğru məlumatlar vermişdir. Buradan da görünür ki, şah hakimiyyətinin əvvəlində Osmanlı ilə sülh bağlayıb vaxt qazanıb, ölkədə quldurluq, özbaşınalıq hallarına son qoyub, islahat keçirdərək mərkəzləşmiş hakimiyyəti gücləndirib, güclü nizami ordu yaradıb. I Şah Abbas dövlət məmurlarına qarşı qəddar, xalqa, rəiyyətə qarşı isə xeyirxah və ədalətli siyasət yürüdürdü [7, s.631-636].

Bütün bunların da nəticəsidir ki, əhalinin güzəranını yaxşılaşdıran, ölkədə böyük tikinti-abadlıq, quruculuq işləri həyata keçirən, nökərlə, yüksək dövlət adamları arasında fərq qoymayan I Şah Abbası xalq hələ sağlığında "adil şah" kimi yüksək dəyərləndirmiş, nağılların da əksəriyyətində ona rəğbət və müsbət münasibət ifadə olunmuşdur.

**Yekun nəticə**. Aparılan araşdırmalara və yuxarıda sadalanan çoxsaylı tutarlı tarixi məlumatlardan görünür ki, I Şah Abbas zəifləmiş Səfəvi dövlətinin yenidən inkişaf etdirilməsi, qurulması və güclü ordu yaradaraq itirilmiş torpaqların geri alınmasında çox böyük xidmətlər göstərmişdir. Səfəvi şahları içərisində I Şah İs-

mayıl Xətaidən sonra ikinci qüdrətli, görkəmli hökmdar I Şah Abbas olmuşdur. O, möhkəm iradəsi və yüksək idarəçilik və hərbi təcrübəsi nəticəsində mərkəzləşmiş hakimiyyəti gücləndirmişdir. Şübhəsiz ki, I Şah Abbas ciddi və sərt tədbirlər görməsə idi, ölkədə özündən əvvəl yaranmış quldurluq, özbaşınalıq, soyğunçuluq kimi cinayət hallarını aradan qaldırmağa nail ola bilməzdi.

Beləliklə, Səfəvi dövlətçiliyi tarixində I Şah Abbas böyük sərkərdə və dövlət xadimi kimi də yer tutmuşdu. Bu barədə Avropada da "Böyük Abbas" adı ilə tanınmış I Şah Abbas haqqında qərbli səyyahlar da dəyərli fikirlər söyləmişlər. Onun hakimiyyəti dövründə də sarayda türk dilində danışmaq məcburi və zəruri olmuşdu. O, təkbaşına, bəzən də vəzirlərilə tez-tez "təğyir-libas" olub gizlin halda kənd və şəhərləri gəzmiş, əhalinin güzaranı ilə yaxından maraqlanmış, onlara lazımi yardımlar etmişdir.

Bütün bunları da nəzərə alaraq belə qənaətə gəlirik ki, nağıllarda "adil şah" kimi təsvir olunan Şah oğlu Şah Abbas surətinin tarixi prototipi I Şah Abbasdır. Eyni zamanda I Şah Abbasın xalq arasında müsbət obrazının yaranmasında II Şah Abbasın da müəyyən təsiri olmamış deyil.

**Ədəbiyyat**


1. Abbaslı, İ. Folklorşünaslıq axtarışları / İ.Abbaslı. 2 cilddə, I c. – Bakı, – 2009. – 512 s.
2. Araslı, H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi / H.Araslı. – 1956. – 325 s.
3. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. – Bakı, – 1994, – 430 s.
4. Azərbaycan tarixi. 3 cilddə, I c. – Bakı, – 1961. – 448 s.
5. Bakıxanov, A. Gülüstani-İrəm / A.Bakıxanov. – Bakı, – 2000. – 224 s.
6. Fazil, Ş. Tərcüməçidən. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Şah Abbasın tarixi [Tarixi-aləmaraye-Abbasi]. – Bakı, – 2010. s.11-34.
7. Münşi İsgəndər bəy. Dünyanı bəzəyən Şah Abbasın tarixi [Tarixi-aləmaraye-Abbasi]. / Azərbaycan dilinə tərcümə edən: Şahin Fazil, – Bakı, – 2010. – 1144 s.
8. Seyidov, N. Azərbaycan nağılları haqqında, Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. I k. / N.Seyidov. – Bakı, – 1961. – s.52-117.
9. Səfərov, Y. Azərbaycan folklorunda tarixilik / Y.Səfərov. – Bakı, – 2005. – 240 s.
10. Təhmasib, M. Azərbaycan xalq dastanları [orta əsrlər] / M.Təhmasib. – Bakı, – 1972. – 398 s.
11. Vəliyev, V. Azərbaycan folkloru / V.Vəliyev. – Bakı, – 1985. – 414 s.


*Məqalə akademik İsa Həbibbəyli*
*tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 14.04.2025, son daxilolma – 11.07.2025, qəbulolunma – 10.09.2025